**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Çin Xalq Respublikasının Baş Gömrük Administrasiyası arasında Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac edilən fındıq və badamın yoxlanılması, karantini və sanitariya tələblərinə dair**
**Protokol**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - Azərbaycan tərəfi) və Çin Xalq Respublikasının Baş Gömrük Administrasiyası (bundan sonra - Çin tərəfi) Azərbaycan Respublikasından Çin Xalq Respublikasına təhlükəsiz fındıq və badamın ixracının təmin edilməsi, istehlakçıların sağlamlığının qorunması və Çin Xalq Respublikasında kənd təsərrüfatı istehsalının təhlükəsizliyinin, eləcə də ekologiya və ətraf mühitin qorunması məqsədilə, Ümumdünya Ticarət Təşkilatının (ÜTT) "Sanitar və fitosanitar tədbirlərin tətbiqi haqqında Saziş"in (SPS Sazişi) prinsiplərinə uyğun olaraq və qida təhlükəsizliyi idarəetmə sisteminin qiymətləndirilməsi və zərərvericilərin risk təhlillərinə əsaslanaraq, dostcasına danışıqlar yolu ilə Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac edilən fındıq və badamın yoxlanılması, karantini və sanitariya tələblərinə dair aşağıdakı protokol (bundan sonra - Protokol) barədə razılığa gəldilər:

**Maddə 1**

Bu Protokolun məqsədləri üçün fındıq və badam insan istehlakına yararlı xammal olaraq Azərbaycan Respublikası ərazisində yetişdirilmiş, yetişmiş meyvələrdən istifadə etməklə, seçilmə, qurudulma və qabığından təmizləmə kimi proseslər vasitəsilə hazırlanmış qovrulmamış fındığı (*Corylus avellana* L) və badamı (Prunus dulcis) ifadə edir.

**Maddə 2**

Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac olunan fındıq və badam Çin Xalq Respublikasının bitki karantini və qida təhlükəsizliyi üzrə qanunvericiliyinin, milli qida təhlükəsizliyi standartlarının və bu Protokolun tələblərinə cavab verir.

Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac olunan fındıq Çin Xalq Respublikası üçün karantin zərərvericisi hesab olunan aşağıdakı karantin zərərvericilərindən azaddır: *Hyphantria cunea və Curculio nucum.*

Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac olunan badam Çin Xalq Respublikası üçün karantin zərərvericisi hesab olunan aşağıdakı karantin zərərvericilərindən azaddır: *Hyphantria cunea və Monilinia fructicola.*

Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac olunan fındıq və badam canlı həşəratlardan, həşərat sürfələrindən, torpaqdan, alaq otlarından (toxum daxil olmaqla), bitki qalıqlarından və metal və ya çınqıl kimi digər çirklənmələrdən azad olacaqdır.

**Maddə 3**

Azərbaycan tərəfi, Çin Xalq Respublikasına ixrac olunan fındıq və badamın Azərbaycan Respublikası və Çin Xalq Respublikasının milli qida təhlükəsizliyi və fitosanitar tələblərinə uyğunluğunu və patogen mikroorqanizmlər və yaxud zəhərli və zərərli maddələrlə çirklənməməsini təmin etmək üçün xammalın yetişdirilməsindən istehsalı, emalı, saxlanılması, daşınması və ixracınadək bütün prosesə rəhbərlik və nəzarət edir.

Azərbaycan tərəfi, Çin Xalq Respublikasına ixrac edilən fındıq və badam üçün, Qida İdxalı və İxracı Yoxlanışı və Sertifikatlaşdırılması üçün Beynəlxalq Qida Standartları-Prinsiplər (CAC/GL 20 -1995) kimi beynəlxalq prinsiplərə uyğun olaraq illik qida təhlükəsizliyi risk monitorinqi planını həyata keçirir və Çin Xalq Respublikasına fındıq və badam ixrac edən müvafiq müəssisələr tərəfindən zərərvericilərin monitorinqi, hərtərəfli nəzarət və məhsul yığımından sonra işlənmə və müvafiq qeydlərin saxlanması daxil olmaqla zərərvericilərə nəzarət üzrə inteqrir mübarizə tədbirlərinin görülməsini təlimatlandırır və nəzarət edir.

Çin tərəfinin sorğusuna əsasən, Azərbaycan tərəfi Çin tərəfini yuxarıda qeyd olunan qida təhlükəsizliyi üzrə risk monitorinqi və zərərvericilərin monitorinqi və nəzarəti üzrə məlumatlarla təmin edir.

**Maddə 4**

Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac edilən fındıq və badam üçün xammal Azərbaycan tərəfindən təsdiq olunmuş fındıq və badam ağacları becərən və istehsal edən qida təhlükəsizliyi və bitki karantini tələblərinə cavab verən qida obyektlərindən əldə edilir.

**Maddə 5**

Azərbaycan tərəfi Çin tərəfinin idxal olunan qida məhsuluna münasibətdə xarici istehsal müəssisələrinin qeydiyyatı üzrə tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac olunan fındıq və badamın istehsalı, emalı və saxlama müəssisələrini yoxlayır və tələblərə cavab verən müəssisələri qeydiyyat məqsədilə Çin tərəfinə tövsiyə edir.

Müəssisələr yalnız qeydiyyata alındıqdan sonra öz məhsullarını Çin Xalq Respublikasına ixrac edirlər.

**Maddə 6**

Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac olunan fındıq və badam qida təhlükəsizliyi və fitosanitar tələblərə cavab verən, daşınma zamanı dağılmanın qarşısını alan yeni, təmiz, gigiyenik və ventilyasiya olunan materiallara qablaşdırılır. Hər bir qablaşdırmanın üzərində Azərbaycan, Çin və ya ingilis dilində "Bu məhsul Çin Xalq Respublikasına ixrac edilir" yazısı və məhsulun adı, yararlılıq müddəti, mənşə yeri, istehsal və emal edən müəssisənin adı Çin Xalq Respublikasında qeydiyyat nömrəsi, ixrac edənin adı və ünvanı kimi izlənilmə məlumatları qeyd olunur. Yuxarıda qeyd olunan məlumatlar hər hansı qablaşdırmaya etiket formasında yapışdırıla bilər.

**Maddə 7**

Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac olunan fındıq və badam yola salınmazdan əvvəl onun daşındığı nəqliyyat vasitəsi Azərbaycan tərəfindən yoxlanılır. Bütün nəqliyyat vasitələri gigiyenik tələblərə cavab verir və hər hansı karantin zərərvericilərindən və alaq otlarından (toxum daxil olmaqla), canlı həşəratlar, bitki qalıqları, torpaq və digər çirkləndiricilərdən, yad cisimlərdən azaddır.

**Maddə 8**

Azərbaycan tərəfindən karantin nəzarəti prosesində bu Protokolun 2-ci maddəsində sadalanan Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac olunan fındıq və badamda hər hansı zərərverici aşkar edildikdə, Azərbaycan tərəfi müvafiq istehsal, emal və saxlama müəssisələrindən fındıq və badamın Çinə ixracını dərhal dayandırır, inteqrir mübarizə tədbirlərini həyata keçirir və Çin tərəfini məlumatlandırır. Çin tərəfindən uyğunluğu qiymətləndirildikdən sonra, müvafiq müəssisələrdən fındıq və badam Çin Xalq Respublikasına ixrac edilə bilər.

Azərbaycan tərəfindən yoxlama və nəzarət zamanı Çin Xalq Respublikasına ixrac edilən fındıq və badamda Çin Xalq Respublikasının milli qida təhlükəsizliyi standartlarına hər hansı bir uyğunsuzluq aşkar olunduqda, həmin məhsullar Çin Xalq Respublikasına ixrac olunmur.

**Maddə 9**

Azərbaycan tərəfi yoxlama və karantin nəticələrinə əsasən, ixracdan əvvəl Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac olunan və bu Protokolun tələblərinə cavab verən fındıq və badam üçün fitosanitar sertifikat verir. Fitosanitar sertifikatın əlavə bəyannamə bölməsində istehsal və emal edən müəssisənin adı və Çin Xalq Respublikasında qeydiyyat nömrəsi barədə məlumat və "Bu fitosanitar sertifikatla təsdiq edilmiş yük Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Çin Xalq Respublikasının Baş Gömrük Administrasiyası arasında __________(tarix) _______(yer) hər

iki tərəfdən imzalanmış Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac edilən fındıq və badamın yoxlanılması, karantini və sanitariya tələblərinə dair Protokolun müddəalarına uyğundur. Yük Çin tərəfi üçün karantin zərərvericisi hesab edilən *Hyphantria cunea, Curculio nucum, Monilinia fructicola və digər* karantin zərərvericilərdən azaddır" qeydi edilir.

Fitosanitar sertifikatın məzmunu və formatı əvvəlcədən hər iki tərəfdən təsdiqlənir.

**Maddə 10**

Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac edilən fındıq və badam Çin Xalq Respublikasının Çin giriş limanına daxil olduqda, Çin Xalq Respublikasının gömrük orqanı yoxlama və karantin nəzarətini həyata keçirir. Yalnız tələblərə cavab verən fındıq və badam Çin Xalq Respublikası ərazisinə buraxılır.

**Maddə 11**

Əgər Çin tərəfi Azərbaycan Respublikasından Çin Xalq Respublikasına ixrac edilən fındıq və badamda Çin Xalq Respublikasının qida təhlükəsizliyi və bitki karantini üzrə qanun və qaydaların tələblərinin, milli qida təhlükəsizliyi standartlarının və bu Protokolun pozulduğunu aşkarladıqda, Çin tərəfi Çin Xalq Respublikasının müvafiq qanun və qaydalarına uyğun olaraq bununla bağlı tədbir görür və Azərbaycan tərəfini pozuntular və görülmüş tədbirlər barədə məlumatlandırır.

Azərbaycan tərəfinin bu Protokolun 3-cü və 8-ci maddələrinə uyğun olaraq verdiyi məlumata və fındıq və badamda uyğunsuzluqlarla bağlı yerli gömrük orqanı tərəfindən verilən məlumata əsasən, Çin tərəfi riskləri yenidən qiymətləndirə bilər. Zərurət yarandıqda, Çin tərəfi yerində yoxlamalar aparmaq məqsədilə Azərbaycan Respublikasına mütəxəssislər göndəriləcək. Yerində yoxlamalarla bağlı tələb olunan xərclərin qarşılanması hər iki tərəf arasında danışıqlar yolu ilə həll edilir. Azərbaycan tərəfi dəvətnamələrin verilməsinə, səfərin təşkilinə köməklik göstərilməsinə və belə yoxlamalarda ekspertləri müşayiət etməyə cavabdehdir.

**Maddə 12**

Bu Protokolun təfsiri və icrası ilə bağlı yarana bilən hər hansı fikir ayrılığı hər iki tərəf arasında dostcasına danışıqlar yolu ilə həll edilir.

**Maddə 13**

Bu Protokol beynəlxalq müqavilə deyil və beynəlxalq hüquqla tənzimlənən hüquq və öhdəliklər yaratmır.

Hər iki tərəfin yazılı razılığı ilə Protokola dəyişiklik və ya əlavə edilə bilər.

**Maddə 14**

Bu Protokol imzalandığı tarixdən qüvvəyə minir və 5 il qüvvədə qalır.

Tərəflərdən biri digər tərəfə yazılı bildirişlə Protokolu ləğv etməzsə, Protokol avtomatik olaraq 5 il müddətlərə uzadılır. Tərəflərdən biri digər tərəfə yazılı bildirişlə Protokolu ləğv etdiyi halda, Protokol digər tərəfin belə yazılı bildirişi aldığı tarixdən 6 ay sonra qüvvəsini itirir.

Bu Protokol______tarixində,_______da hər biri Azərbaycan, Çin və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətn üstünlük təşkil edir.

**Azərbaycan Respublikasının**
**Qida Təhlükəsizliyi Agentliyi**
**adından**

**Çin Xalq Respublikasının**
**Baş Gömrük Administrasiyası**
**adından**